Ədalət .- 2025.- 30 may(№20).- S.6.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Bəhmənlinin xan çinarı...

## Dədə, bizi qoyub hara getdin?

... İnsan var ki, çinara bənzəyir, adam da var ki, dağa bənzəyir... Hər ikisi arxadı, elə-obaya söykəkdi... Və hər ikisi həm də ucalıq rəmzidir. O eldə, o yurdda çinar kimi, dağ kimi adamlar var, o insanlara heç bir qorxu olmaz! Füzuli rayonunun Böyük Bəhmənli kəndində dünyaya göz açmış və orda da boya-başa çatmış Süleyman Adil oğlu İsmayılov da belə bir uca xan çinarına bənzəyirdi. Və o kişinin, o böyük ziyalının, o böyük insanın kölgəsi özündən, qohumlarından çox el-obanın üstünə düşüb. El üçün yaşayan, el üçün çalışan adamları o camaat da çox sevir, çox istəyir...

Tək Bəhmənlidə deyil, Füzulidə, respublikamızda bir ziyalı, bir vətənpərvər, dövlətə və dövlətçiliyə sadiq insan kimi tanınıb və sevilib. Bu insan həmişə qurub-yaratmaq həvəsi ilə çalışıb. Və harda işləyibsə, orada yaddan çıxmaz, unudulmaz izlər qoyub... İstər Sovet dönəmində, istərsə də müstəqillik dövründə məsul vəzifələrdə işləyərkən dövlətə və xalqa sədaqətilə seçilib... Nə qədər ucalığa qalxsa da, həmişə öz sadəliyi, səmimiyyəti onu el-obaya sevdirib... Hər şeyi qazanmaq olar; var-dövləti, evi, maşını... Amma el məhəbbətini hər adam qazana bilməz...



Bax Süleyman İsmayılov el məhəbbətin qazanıb. Süfrəsində tək çörək yeməyib və bir tikə çörəyini də, hətta tanımadığı adamlarla bölüşməyi bacarıb! Nə el-obada, nə də işlədiyi yerdə özündən razı olmayıb, əksinə çox adama çörək verib, yanında iş düzəldib... Bütün bunlar bir daha onun böyüklüyünü, Allaha yaxın olmağını göstərir... O, tək balalarını, nəvələrini çox istəmirdi... O, həm də elini-obasını, Bəhmənlini çox sevirdi. Ona görə də hara gedirdisə, orada çox qala bilmirdi Süleyman müəllim. Mayın 18-də 73 yaşı tamam oldu. Və sevdiyi balalarını, nəvələrini, əzizlərini başına topladı. Elə bil ki, bu, ad günü deyil, vida görüşü idi. Və bir gün sonra Allahın dərgahına qovuşdu...

...Heç kimin ağlamağını istəməyən o böyük insan bizim hamımızı ağlatdı... Balalarını, nəvələrini, dostlarını, bütün Bəhmənli elini ağlatdı... Nəvələri Sədaqəti, Tunarı, balaca Süleymanı ağlatdı... Onun ölüm xəbərini eşidib səhər saat 9-da Bəhmənliyə gələn xalqın sevimlisi Manaf Ağayevi ağlatdı... Dostumuz Manaf Süleyman müəllimin tabutuna çiyin verdi. Qəbirə qoyulana kimi orada oldu və göz yaşlarını saxlaya bilmədi. Və mən bir daha Manaf Ağayevin dostluqda necə sədaqətli olduğunu gördüm...

Süleyman müəllimin dostları Məhərrəm müəllimi, Vahid və Hacı qardaşımızın boynu bükük dayandığına görə ürəyim para-para oldu... Füzuli rayon Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyevin dəfn mərasimində çıxışı biz kövrəltsə də, onun Süleyman müəllimlə bağlı səsləndirdiyi unikal fikirlər bizə bir təsəlli oldu. Mənim müəllimim, böyük ziyalı Nurəddin Abbasovun bu ailə ilə bağlı 50 ildən çox dostluğunu xatırlatması, ötən günləri yada salması, Adil əmimi, Hürzad mamamı yada salması məni və Təbrizi ötən əsrin 70-ci illərinə qaytardı...

Süleyman İsmayılov Birinci və İkinci Qarabağ savaşında Azərbaycan ordusuna təmənnasız olaraq kömək edib. Və 44 günlük İkinci Qarabağ savaşında Horadiz şəhərindəki çörək zavodunda 24 saat işləyərək ordumuzu isti çörəklə təmin edib. Həmin günlərdə Horadiz atəşə tutulanda mərmilərin bir neçəsi çörək zavodunun həyətinə düşüb. Və qorxudan bir neçə qadın işə çıxmayıb, amma Süleyman müəllim öz qohumlarını Bəhmənlildən gətirərək bir saat olsun belə müəssisənin dayanmasına imkan verməyib, xoşbəxtlikdən ölüm-itim də olmayıb. O, səhərə qədər çörəkçiləri tək qoymayıb və onlara rəhbərlik edib. Onlar böyük mükafata layiq idilər, amma əziyyəti Süleyman müəllim və işçiləri çəkdilər, mükafatı isə başqaları aldılar.

O, xeyriyyəçilik işləri də görüb, yetimə-kasıba əl tutub, arxa durub. Çox yas məclisinə çörəyi pulsuz göndərib. Amma bunun heç birini o böyük kişi bir dəfə olsun belə dilinə gətirməyib... Təbii ki, böyük insanlar həmişə belə edib: sağ əl elədiyini, sol əl bilməyib! Süleyman İsmayılov xeyirxah işlərinə görə bir çox mükafatlara, o cümlədən "El atası" mükafatına layiq görülüb. Amma onun üçün ən böyük mükafat Bəhmənli camaatının məhəbbətini, sevgisini qazanmaq idi, onu da bacardı! Yeri Cənnət olsun! Yazımızın əvvəlində qeyd etdik ki, Süleyman İsmayılov heç kimin ağlamasını istəməzdi. Amma el üçün yaşayan insana görə el də ağladı!..

Süleyman müəllim indi o dünyanın ən gözəl yerindədir - Allahın yanında və onun dostu O Böyük Ulu Yaradandır! Allah isə bütün dostlardan daha sədaqətlidir!

Yazımıza dostumuz və qardaşımız, Xalq şairi Ramiz Rövşənin bir bənd şeiri ilə nöqtə qoyuruq:

Qəbrim üstə istəmirəm,
Bir dost-tanış ağlasın,
Bir az külək uğuldasın,
Bir az yağış ağlasın...